**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**akad. Z.M. BÜNYADOV adına ŞƏRQŞÜNASLIQ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ÖMƏR TAHSİN OĞLU CULFA**

# ƏHMƏD CAVAD TÜRKİYƏ ƏDƏBİ-MƏDƏNİ MÜHİTİNDƏ

5717.01– Türk xalqları ədəbiyyatı

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI - 2016**

Dissertasiya işi Qafqaz Universitetinin "Türk dili və ədəbiyyatı" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Akif Məmməd oğlu Hüseynli**
filologiya üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Elman Hilal oğlu Quliyev**
filologiya üzrə elmlər doktoru, professor

**Alxan Bayram oğlu Məmmədov**
filologiya üzrə elmlər doktoru, professor

**Aparıcı təşkilat:** **AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutu, Türkdilli əlyazmaların tədqiqi şöbəsi**

**Müdafiə** "_20____" _06________ 2016-cı il saat _____-da Azərbaycan Milli Elmlər Akademiyasının akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun nəzdində filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.01.151 – Dissertasiya Şurasının iclasında keçiriləcək.

**Ünvan:** AZ-1143, Bakı şəhəri, H. Cavid prospekti 115, VII mərtəbə, AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu.

Dissertasiya işi ilə AMEA –nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat "_____" __________ 2016-cı ildə göndərilmişdir.

**FD 01.151 Dissertasiya Şurasının elmi katibi, filologiya üzrə fəlsəfə doktoru :** **Zenfira Ədhəm qızı Şıxəlibəyli**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Türk xalqları içərisində Anadolu və Azərbaycan türkləri tarixi kökləri, mədəniyyətləri, ədəbiyyatları, adət-ənənələri ilə bir-birlərinə çox yaxın xalqlardır.Tarixin müxtəlif mərhələlərində bu iki xalq arasında nə qədər süni soyuqluq yaratmaq istəsələr də, buna nail ola bilməmişlər. Bildiyimiz kimi, xalqlar arasında mədəniyyət əlaqələrinin əsas sütununu təşkil edən dəyərlər içərisində ədəbiyyat və sənətin ayrıca bir yeri və əhəmiyyəti vardır.

Milli mədəniyyət kodlarından ən geniş yerə malik olan ədəbiyyat ictimai və milli şüuru gücləndirən bir funksiyaya sahibdir. Məhz bu baxımdan, qloballaşma prosesində ədəbiyyatın funksional ölçüsü nəzərə alınaraq bu ədəbi əlaqələr daha sıx inkişaf etməlidir.

İki dövlətin mədəni əlaqələrinin tarixi və perspektivləri ilə bağlı dövlət rəhbərləri dəfələrlə fikirlər söyləmiş, bu əlaqələrin daimi və əbədi olacağı haqqında bəyanatlar vermişlər. Heydər Əliyevin bəyan etdiyi “Biz bir millət, iki dövlətik” deyimi hər bir azərbaycanlı və türkiyəli üçün prioritet istiqamət olmalıdır.

Türkiyə-Azərbaycan ədəbi əlaqələrinin inkişafı ictimai təşkilatlar vasitəsilə, hər cür elm və sənət fəaliyyətləri, yeni layihələrlə gücləndirilib davam etdirilməkdədir. Bu ədəbi əlaqələr informasiya texnologiyalarından, radio, televiziya, ortaq elmi araşdırmalardan istifadə edilərək ortaq mədəniyyət və ədəbiyyat kodlarıyla işləyəcək proqramlarla sistematik şəkildə həyata keçirilməlidir. Əgər bu gün qloballaşma şəraitində Türkiyə-Azərbaycan ədəbi əlaqələrindən danışırıqsa bunun kökü keçən əsrin əvvəllərinə gedib çıxır. Bu baxımdan XX əsrin başlarında bu ədəbi əlaqələrin inkişafında istiqlal şairi Əhməd Cavadın böyük rolu olmuşdur.

Əhməd Cavad 1916-cı ildən Türkiyə ədəbi mühitinə daxil olub bu günə qədər orada öz populyarlığını qoruyub saxlayan bir azərbaycanlı şairdir. Maraqlıdır ki, Türkiyə ədəbiyyatçılarının Əhməd Cavad şəxsiyyətinə olan hörmət və məhəbbəti illər keçdikcə gün-gündən artır və onun əsərlərinin elmi cəhətdən araşdırılmasına maraq çoxalır. Məhz bu baxımdan Əhməd Cavadın Türkiyə ədəbi-mədəni mühitindəki dünənki, bugünkü, sabahkı yerini müəyyənləşdirmək, bununla da bu iki ölkə, xalq arasındakı ədəbi mədəni əlaqələri araşdırmaq tədqiqatın aktuallığını şərtləndirən əsas amillərdəndir.

**Dissertasiyanın tədqiqat obyekti və predmeti**. Tədqiqat işinin əsas obyekti Ə. Cavadın Türkiyə ədəbi mədəni mühitində çap olunmuş əsərləri, Türkiyədə şairin həyat və yaradıcılığının araşdırılmasıdır. Müslüm Oğuzun

“Nisan ağlar mayısa”(“Aprel ağlar maya”) romanı da obyekt kimi götürülmüş, oradakı Əhməd Cavad surəti təhlil olunmuşdur. Dissertasiyanın predmetini Ə. Cavad yaradıcılığının Türkiyə ədəbi-mədəni mühitində hansı dövrlərdə və hansı səviyyələrdə öyrənilməsini araşdırmaq təşkil etmişdir.

**Mövzunun tədqiqi tarixi.** Əhməd Cavadın həyatı və yaradıcılığı Azərbaycan və Türkiyə ədəbi-mədəni mühitində araşdırılıb tədqiq olunmuşdur. Əhməd Cavad şəxsiyyətinə, yaradıcılığına istər Azərbaycanda, istərsə də Türkiyədə onlarla məqalə həsr olunmuş, kitablar yazılmışdır[1]. Əhməd Cavad bədii obraz kimi Türkiyə yazıçılarının əsərlərində canlandırılmışdır. Tədqiqat boyu bu əsərlər, Türkiyə mətbuatında çap olunmuş yazılar saf-çürük olunaraq təhlil ediləcəkdir.

Türkiyədə Əhməd Cavad haqqında yazılmış heç bir elmi araşdırma, nəşr olunmuş heç bir kitab gözdən qaçırılmamış, onun haqqında söylənmiş fikir və mülahizələrin hamısı tədqiqat işində ətraflı öyrənilmişdir.

**Dissertasiyanın məqsəd və vəzifələri.** Məqsədimiz Azərbaycan şairi Əhməd Cavadın yaradıcılığının Türkiyə ədəbi-mədəni mühitində nəşrini, araşdırılmasını, dəyərləndirilməsini tədqiq etməkdir. Bu məqsədi reallaşdırmaq üçün aşağıdakı vəzifələrin icrası nəzərdə tutulur:

---

[1] Nəbiyev.B. Əhməd Cavad. Bakı: Ozan, 2004, 130.; Saləddin Ə. Əhməd Cavad, Bakı: Gənclik, 1992, 316 s.; Məmmədli A.Əhməd Cavad və Türkiyə: Filologiya elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Bakı, 2010, 137 səh.; Məmmədli. A. Əhməd Cavad və Türkiyə. Bakı: Elm və Təhsil-2010, 167 s.; Yıldırım,. İ. M. Selam Türkün Bayrağına, İzmir, Gelecek Matbaacılık ve Yayıncılık,1992, 223 s.; Akpınar. Y. Azeri edebiyatı araştırmaları, İstanbul: 1994. 512 s.; Ahmet Cevat, Çırpınırdı Karadeniz, Şiirler-I, Haz. Server Gürcan, Ankara: Göktug, Ltd. 1990, 120 s.; Gürcan S. Türklük Şuurunu Uyanık Tutan Azerbaycan`ın Milli Şairi Ahmet Cevat // Millî Kültür, Ankara, 1990, say.80-81.; Həsənov R.S. Əhməd Cavadın yaradıcılıq yolu: Filologiya elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Bakı, 2008, 158 s.; Mustafayeva G. Əhməd Cavad yaradıcılığında milli istiqlal problemi : filologiya elm. namiz. ... dis. avtoreferatı : AMEA Nizami adına Ədəbiyyat İnstitutu. - Bakı, 2007. - 20 s.; Salmanlı R. Əhməd Cavadın yaradıcılıq yolu: filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya, Bakı 2011, 120 s.; Baykara H. Azerbaycan İstiklal mücadilesi tarihi. İstanbul: 1975, Genclik basımevi, 331 sayfa.; Gedikli. F. Gedikli Y, Çağdaş azeri şiiri antolojisi. İst: 1983, 257 s.

-XX əsrin əvvəllərində Türkiyədə və Azərbaycanda ədəbi mühitin bir-biri ilə qarşılıqlı əlaqəsini araşdırmaq;
-XX əsrin əvvəllərində yenicə rüşeymləri atılan türkçülük hərəkatının Əhməd Cavadın Türkiyə ədəbi mühitinə gəlməsində rolunu müəyyənləşdirmək;
-Əhməd Cavadın Türkiyə ədəbi-mədəni mühitinə gəlmə səbəblərini izləmək;
-Əhməd Cavad əsərlərinin Türkiyədə nəşrini araşdırmaq;
-Əhməd Cavad yaradıcılığının Türkiyədə öyrənilmə istiqamətlərini müəyyənləşdirmək;
-Türkiyədə Əhməd Cavad haqqında nəşr olunmuş məqalələri tədqiq etmək;
-Türkiyə bədii nəsrində yaradılmış Əhməd Cavad surətini təhlil etmək;
-Əhməd Cavadın yaradıcılığının Türkiyə və Azərbaycan variantlarını qarşılaşdıraraq mövcud olan fərqlərin səbəblərini göstərmək.

**Dissertasiya işinin elmi yeniliyi.** Bu mövzunun oxşarı Azərbaycan alimi Afina Məmmədli tərəfindən "Əhməd Cavad və Türkiyə" adı altında tədqiqata cəlb olunsa da bizim araşdırmamızın elmi yeniliyi ondan ibarətdir ki, Əhməd Cavadın Türkiyə ədəbi-mədəni mühitindəki roluna ilk dəfə birbaşa Türkiyədən baxılmış, Türkiyə arxivlərindəki, kitabxanalarındakı materiallardan istifadə olunmuş, bir Türkiyə tədqiqatçısının qələmi ilə elmi təfəkkür süzgəcindən keçirilmişdir. Əsərdə o cümlədən, Müslüm Oğuzun «Nisan ağlar mayısa» ("Aprel ağlar maya")romanındakı (1991) Əhməd Cavad surəti də təhlil edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:** Müdafiəyə aşağıdakı müddəalar çıxarılır:

- Tədqiqatda XX əsrin əvvəllərində Türkiyədə və Azərbaycanda ədəbi mühitin bir-biri ilə qarşılıqlı əlaqəsi, ədəbi-mədəni mühitdə gedən proseslər izlənilmişdir;
- Araşdırmada Əhməd Cavadın yaradıcılığının Türkiyədəki elmi tədqiqatlarda hansı səviyyədə araşdırıldığı faktları açıqlanmışdır;
- Tədqiqatda Türkiyədə Əhməd Cavad haqqında nəşr olunmuş məqalələr təhlil olunmuşdur.

**Dissertasiyanın nəzəri- praktik əhəmiyyəti.** Dissertasiya işindən gələcəkdə Türkiyə- Azərbaycan ədəbi əlaqələri mövzusunda əsərlərin yazılmasında, dərs vəsaitlərinin hazırlanmasında faydalanmaq olar.

**Tədqiqatın nəzəri və metodoloji bazası.** Dissertasiya işi tarixi-tipoloji, müqayisəli təhlil metodu ilə yazılmışdır. Dissertasiyada XX əsrin əvvəlləri Türkiyə və Azərbaycan ədəbi-mədəni mühitlərini müqayisə edən elmi-nəzəri prinsiplərdən istifadə edilmişdir.

**Dissertasiyanın aprobasiyası**. Tədqiqat işi Qafqaz Universitetinin Türk dili və ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir. Dissertasiyanın əsas məzmunu, elmi müddəa və nəticələri iddiaçının müxtəlif elmi məcmuə və jurnallarda çap etdirdiyi məqalələrində, beynəlxalq və yerli elmi-praktik konfranslardakı məruzə və tezislərində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın "**Giriş**" hissəsində mövzunun aktuallığı, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, elmi yeniliyi, metodologiyası, öyrənilmə səviyyəsi, nəzəri və praktik əhəmiyyəti əsaslandırılır, işin aprobasiyası və quruluşu haqqında məlumat verilir.

Dissertasiyanın "**Əhməd Cavad və Türkiyə ədəbi-mədəni mühiti**" adlı I fəsli üç yarımfəsildən ibarətdir. Birinci yarımfəsil "**XX əsrin əvvəllərində Türkiyə və Azərbaycanda ədəbi mühitin qarşılıqlı əlaqəsi**" adlanır. Bildiyimiz kimi, Azərbaycan və Türkiyə ədəbiyyatı birlikdə ümumtürk ədəbiyyatının qərb qolunu təşkil edir. Əsrlər boyu ümumtürk ədəbiyyatının bu iki qolu bir-biri ilə qarşılıqlı münasibətdə olmuş, müsbət yöndə bir-birinə təsir göstərmişdir. Azərbaycan ədəbiyyatının Türkiyə ədəbiyyatına təsirinin Nizamidən, Nəsimidən başlandığını söyləyən S. Qasımlı XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində Azərbaycan Türkiyə əlaqələrinin daha da genişləndiyini yazır [1]. Bu iki ədəbiyyatın bir-birlərinə təsiri istər Türkiyə, istərsə də Azərbaycan alimləri tərəfindən tədqiqata cəlb olunmuşdur. Azərbaycan alimlərindən A. Abıyevin, E. Quliyevin, B.Osmanovanın bu sahədə tədqiqatları mövcuddur[2]. Ədəbiyyatşünas F. Hüseynov yazır: "Bütün XIX əsr boyu Türkiyədə və Azərbaycanda yaradılan ədəbiyyatı diqqətlə izlədikcə görmək olur ki, hər iki regionda bir-birinə olduqca yaxın proseslər baş vermişdir. Məsələn, həm Türkiyə, həm də Azərbaycan ədəbiyyatında XIX əsrdə Qərbi Avropa ədəbiyyatının təsiri özünü göstərməkdədir; hər iki ədəbiyyatda

---

[1]Kasımlı S. Azerbaycan Basınında Türkiye Edebiyatı Araştırmaları/6. Uluslararası Türk Kültürü Kongresi Bildirileri.Ankara:2005, s.1444

[2] Abıyev A.Ömər Seyfəddinin həyatı və yaradıcılığı. Bakı:Elm, 1978, 160 s.;Abıyev A.Türkiyə ədəbiyyatı tarixi:(müqayisəli) 2 cilddə, II c. -I hissə, Bakı:BUN, 2007, 280 s.; Abıyev. A. Türkiyə ədəbiyyatı tarıxi: (müqayisəli) 2 cilddə, I.c., , Bakı: "MBM", 2006, 456 s.; Quliyev E. Türk xalqları ədəbiyyatı. Bakı: Qismət, 2009, 400 s.; Osmanova. B. Bakı: "Maarif və mədəniyyət"jurnalında elmi araşdırmalar. 2013,322 s.

epiqonçuluqdan xilas olmaq cəhdləri, yeni, Avropa ədəbi formalarından(roman, dram və s.) istifadə halları getdikcə güclənir”[1].

XIX əsrin sonu XX əsrin əvvəlləri Türkiyə ədəbiyyatının kifayət qədər ziddiyyətli bir dönəmi idi. XIX əsrdən başlayaraq dünya siyasəti və iqtisadiyyatı yeni mərhələyə qədəm qoyurdu. Beynəlxalq aləmdəki ziddiyyətlər, Osmanlı imperiyasının parçalanmaq ərəfəsində olması, Avropa siyasi-iqtisadi gücünün Şərqdə hakimliyi bu əsrin payına düşür. Bu əsr həm də elmi, mədəni inkişafın yüksək mərhələsi idi. Bu inkişafın mərkəzində Avropa dayanırdı.

XX əsr türk ədəbiyyatının ən gözəçarpan fəaliyyəti, XIX əsrin ilk 25 ilindəki milli ədəbiyyat hərəkatlarının güclü şəkildə inkişaf edərək zəngin və faydalı bir milli ədəbiyyat cərəyanı halına gəlməsidir. Məhz bu milli ədəbiyyat Azərbaycan ədəbiyyatına böyük təsir göstərmiş, romantizm cərəyanının formalaşmasına təkan vermişdir.

Türkiyə ədəbiyyatı 1908-ci il inqilabından sonra yenidən canlanmış, milli ədəbiyyat cərəyanı halına gələnə qədər müəyyən yol və mərhələlərdən keçmişdir.

Türkiyə ədəbiyyatında 1800-cü ildən Qərbə yönəlmiş bir türk ədəbiyyatı dönəmi başlayır. Divan ədəbiyyatının əsrlərcə davam edən sükunəti, klassikliyi artıq bu ədəbiyyatda görünmür. Əhməd Kabaklı Qərbə yönəlmiş türk ədəbiyyatını zaman və məqsəd baxımından 4 əsas bölümə ayırır:a)Tənzimat dönəmi; b)Sərvət-i Fünun dövrü; c)Milli ədəbiyyat dönəmi; d)Yeni ədəbiyyat dönəmi[2] .

A. H. Tanpınar isə XIX əsr türk ədəbiyyatını əsasən bu mərhələlərə bölmüşdür: XIX əsrin ilk yarısında türk ədəbiyyatı və Tənzimat illəri.[3]

XIX əsrdən etibarən türk ədəbiyyatında milliyyətçilik hərəkatı başlanır. Türkiyədə başlanan bu ədəbi proseslər XX əsrin əvvəllərində paralel olaraq Azərbaycan ədəbiyyatında da gedirdi. Yuxarıda adlarını çəkdiyimiz cərəyan və mərhələlər həm də bu mərhələlərin hər birinin nümayəndələri XX əsrin əvvəllərindəki Azərbaycan ədəbiyyatının nümayəndələrinə, xüsusilə də romantizm cərəyanının formalaşmasına təsir göstərmişdir. Azərbaycan ədəbiyyatı araşdırmaçısı Y. Akpınar yazır ki, XX əsrin əvvəllərində Azərbaycan şeiri yeniləşmə istiqamətində xeyli inkişaf etmişdir. Xüsusilə, Türkiyədəki yeni ədəbiyyat anlayışına; Ədəbiyyatı-

---

[1] Hüseynli T.T. Azərbaycan Demokratik Respublikasının ağır illərinin romanı (Müslüm Oğuzun «Nisan ağlar Mayısa» romanı haqqında). Bakı: Nurlan, 2003, s.4

[2] Kabaklı A. Türk Edebiyatı, III cilt. İstanbul: 1978,s.9-10

[3] Tanpınar A.H. 19`uncu asır Türk edebiyatı tarihi. İstanbul: 2003,.

Cədidə və daha sonra da Sərvət-i Fünuna və nəhayət, Milli ədəbiyyat cərəyanına qatılmış şairlərin əsərləri 1905-ci ildən sonra Azərbaycan şeirinin yeni inkişaf yoluna qədəm qoymasına güclü şəkildə təsir göstərmişdir[1].

Bu dönəmin şair və yazıçıları ideal cəmiyyət, ideal həyat axtarışında idilər ki, bu da artıq Türkiyə ədəbiyyatında romantizm cərəyanının formalaşmasına dəlalət edirdi. Romantizm cərəyanı, romantik ədəbiyyat Tənzimatdan başlayaraq hər dövrdə bir az daha inkişaf edir.

Türkiyədə bu proseslərin getdiyi dövrdə Azərbaycanda da geniş şəkildə türkçülük oyanışı baş verirdi. Bunun başında Ziya Göyalpın fikir atası sayılan Əli bəy Hüseynzadə dururdu. Ə.Hüseynzadənin mədəni türkçülük konsepsiyasını A.Səhhət, A.Şaiq və eləcə də H.Cavid, Ə.Cavad, C.Cabbarlı və gənc istiqlalçı şairlər bədii əsərlərində həyata keçirirdilər[2].

Əli bəy Hüseynzadənin arxivi Türkiyədə qorunub saxlanılır. Türkiyədəki arxivində nadir sənədlərdən biri də Əhməd Cavadın öz əl yazısıyla 1 may 1918 tarixində Gəncədə yazıb Ə. Hüseynzadəyə hədiyyə etdiyi "Çırpınırdın Qaradəniz" adlı şeiridir. Bu şeir üzərindəki tarixi qeydindən anlaşılır ki, cümhuriyyətin müstəqilliyini elan etməsindən iki gün sonra Əhməd Cavad Gəncədə olub. Bu möhtəşəm əsər haqqında Azərbaycan türkoloqları da elmi və dövrü ədəbiyyatda müxtəlif yazılarla çıxış ediblər.[3]

Tədqiqatçı alim A. Məmmədlinin fikrincə, turançılıq – türkçülüyün son mərhələsi, hədəfidir. Bu türkçülük hərəkatı tam halda Azərbaycan ədəbiyyatında da əks olunurdu.

Bu barədə, Saydam Abdullahın fikirləri də maraqlıdır: "XX əsrin ilk onilliklərində Türkiyə Osmanlı imperiyasının hüdudlarından kənardakı türklər üçün sözün həqiqi mənasında bir Məkkə timsalında idi. Azərbaycan, tatar, başqırd, qazax, özbək, uyğur və s. xalqların, habelə Avropada yaşayan türklərin nümayəndələri yeniliyə, inkişafa, daha geniş anlamda isə türklüyə və islama xidmət üçün bu məmləkətə üz tuturdular"[4].

Ə.Cavadın türkçülük və turançılıq ideyaları, əsasən, Osmanlı ədəbiyyatından, azadlıq və türkçülük mücahidlərinin əsərlərindən qaynaqlanırdı.

---

1 Akpınar Y. Azeri edibiyatı araştırmaları, İstanbul: 1994,s.80

2 Məmmədli A. Əhməd Cavad və Türkiyə: Filologiya elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Bakı, 2010.s.85

3 Quliyeva-Qafqazlı X. Iki dahinin ərsəyə gətirdiyi əsər "ÇırpınırdıQara dəniz" əsərinin yaranma səbəbi və tarixi. "Respublika" qəzeti, Bakı 2014, 9 noyabr.

4 Saydam A. Mustafa Kemal Paşa ile Enver Paşa arasındaki liderlik mücadelesi // Türk Dünyası Tarih Dergisi. Eylül 1990, sayı 45, s. 31-32

Onun qaynaq aldığı mənbələr və şəxslər bizim yuxarıda şərh etdiyimiz dönəmlərlə, ədəbi məktəblərlə bağlı idi. O, 4 ədəbi cərəyanın, cəmiyyətin, məktəbin hər biri Əhməd Cavad yaradıcılığında böyük iz qoymuşdur. Namiq Kamal, Tofiq Fikrət, Mahmud Əkrəm Rəcaizadə, Əbdülhəq Hamid, Məmməd Akif Ərsoy, Rza Tofiq, Məmməd Əmin Yurdakul kimi görkəmli şairlərin əsərləri Əhməd Cavad üçün örnək olmuşdur. Bunu Əhməd Cavad şeirlərinin janrından, üslubundan da duya bilərik. Ə.Cavad əsasən bu şairlərin heca vəznində və sadə dildə yazılan şeirlərindən təsirlənərək əsərlər yaratmışdır. Azərbaycan romantikləri arasında Əhməd Cavad yeganə şairdir ki, ilk əsərlərindən başlayaraq onun da haqqında Məmməd Əmin Yurdakul kimi, "milli şair" ifadəsi işlənmişdir[1].

XX əsrin əvvəlləri millətlərin sosial-mədəni və ədəbi sahədə yenidən formalaşması, ziyalıların dünyagörüşündə böyük dəyişikliklərin yaşandığı bir dövr kimi önəmli bir əhəmiyyətə malikdir. İ. M. Yıldırım bu dövrü belə izah edir: "XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycandakı siyasi və ictimai hərəkat mədəni həyatı təsir altına almışdır. Bu dövrdə Azərbaycan və Türkiyə arasındakı siyasi və mədəni əlaqələri nəzərdən keçirsək, Əhməd Cavadın Azərbaycan ədəbiyyatındakı yerinin və funksiyasının nə qədər önəmli olduğu qənaətinə gələrik."[2]

"XX əsr Azərbaycan ədəbiyyatı tarixi"ndə oxuyuruq: "Romantizm Azərbaycana iki yol ilə gəlmişdi.-Türkiyə və Rusiya yolu ilə. Türkiyə yolu ilə gələn romantizm Rza Tofiqin, Əbdülhəq Hamidin, Abdulla Cövdətin və Namiq Kamalın yaradıcılığında məhəlli, milli-dini bir məzmun kəsb etmişdir. Bu romantizmin Avropadan aldığı tərəqqi, bəşərçilik, zəriflik xüsusiyyətləri qismən türkçülük təəssübü ilə kölgələnmişdir[3].

Azərbaycanda romantizm cərəyanı Fransa və İngiltərədə olduğu kimi müəyyən bir dövrə damğa vuracaq qədər güclü bir məktəb olmamışdır. Rusların təzyiqi səbəbindən bu cərəyan gec formalaşmışdır. İctimai-siyasi mövzularla birlikdə təbiət, insan hissləri ilə əlaqədar mövzuları da əhatə edən bu ədəbiyyatın başlıca nümayəndələri: Məhəmməd Hadi, Hüseyn Cavid, Abbas Səhhət, Əhməd Cavad və A. Bəy Divanbəyoğludur.

Azərbaycandan təhsil almaq üçün gəlib Türkiyədəki siyasi, ədəbi və mədəni hərəkatların təsiri altına düşən ziyalıların da Azərbaycanda mədəniyyət və fikir hərəkatının canlanmasında böyük rolu olmuşdur. Bu

---

[1] Əliyeva(Kəngərli) A. Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük. Bakı: Elm, 2002,s.187

[2] Yıldırım İ. M. Selam Türkün Bayrağına, İzmir: Gelecek Matbaacılık ve Yayıncılık,1992, s.7.

[3] Mir Cəlal, Hüseynov. F. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı: Maarif, 1982,s.44

ziyalılar Türkiyədəki Türkçülük cərəyanını, türkçülük fikrini, düşüncə tərzini, İstanbuldan Azərbaycana gətirdilər. Məhz bu sənətkarların təsiri ilə əsrlərdən bəri Azərbaycan ədəbiyyatında mövcud olan romantizm bir ədəbi cərəyan kimi formalaşdı.

**Dissertasiyanın I fəslinin ikinci yarımfəsli "XX əsrin əvvəllərində türkçülük hərəkatı"** adlanır.

Əhməd Cavadı Türkiyə ədəbi-mədəni mühitinə gətirən amil türkçülük idi. XX əsrin əvvəllərində istər Azərbaycanda, istərsə də, digər türkdilli bölgələrdə milli dirçəliş, milli oyanış dövrü olduğuna görə türk xalqlarının birliyi ideyası da aktuallaşdı.

XX əsr Azərbaycan milli düşüncə tarixində bir oyanış çağıdır. Bu çağ fərqli tərbiyə almış, fərqli düşüncəyə sahib vətən övladlarının millət üçün kimlik arama, milli iradə yaratma kimi xüsusiyyətlərini daşımaqdadır. Türkiyədəki türkçülük hərəkatının, oyanışın Rusiya türklərinə çox böyük təsiri oldu. XIX əsrin sonları, XX əsrin ilk illərində Rusiyanın türklər yaşayan bölgələrində mədəniyyət mərkəzləri yaranmağa başladı. Bunlardan ən önəmliləri Krım, Bakı, və Kazan mərkəzləri idi. Bu üç mədəniyyət mərkəzi tarixin müxtəlif zamanlarında sivilizasiyanın mərkəzi olmuş, xanlıqlara və dövlətlərə paytaxtlıq etmişdir.

Türkçülük ideologiyasının yaranmasının ana vətəni Türkiyə olsa da, bu ideologiya Rusiyadakı türklər arasına məhz Azərbaycandan, Bakıdan yayılırdı. Bu ideologiyanın nəzəri əsasları Ziya Göyalp tərəfindən hazırlansa da  banisi Əli bəy Hüseynzadə idi. Düzdür, bu ideologiyanın nəzəri əsasları Ziya Göyalp tərəfindən hazırlanıb, ancaq biz deyərdik, nəinki Azərbaycanda, bütün türk dünyasında bu ideologiya Əli bəy Hüseynzadə tərəfindən irəli sürülüb.

Onun ideoloji məktəbində Hüseyn Cavid, Əhməd Cavad yetişdi. Türkçülük ideyalarının, türk xalqlarının birliyi mövzusunun gündəmə gəlməsində İ.Qaspıralının da müstəsna rolu olmuşdur.

Əhməd Cavad İsmayıl bəy Qaspıralıya böyük ehtiram göstərmiş, onun ölümünü Kəbənin yıxılması ilə müqayisə etmişdir.

Ümumiyyətlə, türkçülük hərəkatından danışdıqda İsmayıl bəy Qaspıralı, Əli bəy Hüseynzadə və Ziya Göyalpdan birgə danışmaq lazımdır. Onları ayırmaq mümkün deyil. Onların üçü də Əhməd Cavadın bir türkçü kimi yetişməsində böyük rol oynamış şəxslər olub.

Əhməd Cavadın türkçülüyü və Türkiyəyə vurğunluğu onun 1925-ci ildə həbs olunmasına,daha sonra isə repressiya qurbanı olmasına səbəb oldu.

**I fəslin 3-cü yarımbaşlığı "Əhməd Cavadın türkçülük ideyalarının zəmini"** adlanır. Əhməd Cavadın Türkiyə ədəbi-mədəni mühitinə gəlişinin təsnifatını belə təqdim edərdik:1.Ə. Cavadı yetişdirən mühit və təhsil illəri;2. I Dünya Müharibəsi;3. 1918-ci ildə türk ordusunun Azərbaycana gəlişi, ADR-in qurulması.

Əhməd Cavadı Türkiyəyə, o cümlədən türkçülüyə bağlayan amil onu yetişdirən mühit idi. XX əsrin əvvəllərində, ümumiyyətlə, gənc Azərbaycan ziyalılarında milli şüurun inkişaf etməsində rus müstəmləkəçiliyinin ölkədə törətdiyi rəzalətlərin də rolunu göstərmək lazımdır. Bu mühitdə Azərbaycan gəncliyində, xüsusən də yetişməkdə olan yeni ziyalılar arasında əsl-kökə qayıtmaq meyilləri qüvvətlənirdi.Ə. Cavad Gəncədə oxuyarkən müəllimlərindən biri Türkiyə vətəndaşı Savad Cavad, o biri isə Türkiyədə təhsil almış Abdulla Sur olmuşdur. Bunlar da şairin Türkiyə ədəbi-mədəni mühitinə gəlməsində önəmli rol oynamışlar.

Əsrin əvvəllərində Türkiyənin düşdüyü ağır vəziyyət bir türk oğlu kimi Əhməd Cavadı çox narahat edirdi. O, Türkiyəyə ayrı ölkə kimi baxmır, onu öz torpağı, türkiyəli qan qardaşlarını isə öz milləti olaraq qəbul edirdi. O vaxtlar Azərbaycanın müxtəlif yerlərində toplantılar keçirilir, Anadolu türklərinə yardım etmək üçün böyük səylər göstərilirdi. Əhməd Cavad bu təşkilatların fəaliyyətində birbaşa özü şəxsən iştirak etmişdir.

Şair Türkiyədə müharibə ucbatından çətin günlər yaşayan insanlara kömək etmək üçün 1915-ci ilin martında – Novruz bayramı günlərində Qars və Ərzuruma gəlir.

Ə. Cavad müharibəyə nifrət edir, bu cür savaşların insanların həyatından və zehnindən silinməsini istəyirdi. O səbəbdən müharibənin bütün canlıların həyatına zərbə vurduğunu şeirlərində dilə gətirir. B. Nəbiyev yazır:"Əhməd Cavad, döyüşün bütün mənfi şəkillərini bizə izah edərkən müharibənin uşaqları məhv etməsinə, yolların qonaqsız qalmasına, təbiətin dağıdılmasına, cəmiyyətin əxlaqının pozulmasına səbəb olduğunu, savaşın bu mənfi yönlərini göstərməklə, insanlara bundan uzaqlaşmağı məsləhət görür"[1].

Azərbaycan Demokratik Cümhuriyyətinin qurulması və türk ordusunun 1918-ci ildə Azərbaycana gəlişi Əhməd Cavadın və Azərbaycan xalqının həyatında böyük inqilaba səbəb oldu. İlk dəfə Azərbaycan xalqı müstəqil, heç kimdən asılı olmayan bir dövlət qurdu. A.Rüstəmlinin sözləri ilə desək, "Dost və düşmənlərini sınaqlardan çıxarmağa şərait yarandı, bir

---

[1] Nəbiyev B. Əhməd Cavad. Bakı: Ozan, 2004,s.60

millət kimi sabahı haqqında düşünməyə, müstəqil siyasi yol seçməyə vadar edildi"[1].

Türk ordusunun Bakıya gəlişi Əhməd Cavadda ayrı bir həyəcan və sevgi əmələ gətirmişdir. Ə.Cavad Azərbaycan xalqını bolşevik-daşnak əsarətindən xilas etmək üçün gəlmiş türk ordusunu öz əsərlərində tərənnüm edir, ordunun təkcə azərbaycanlılar qarşısında deyil, bütün türklər və tərəqqipərvər dünya qarşısında tarixi xidmətlərini göstərirdi. "Türk ordusuna" şeirində xilaskar ordu Turandan rus işğalçılarını qovduğu üçün alqışlanırdı:

Ey şanlı ölkənin şanlı ordusu,
Unutma Qafqaza girdiyin günü!
Gəlirkən qovmağa Turandan rusu
Ayağın Qara dənizi öpdümü?

**Dissertasiyanın II fəsli "Əhməd Cavad yaradıcılığının Türkiyədə öyrənilməsinin əsas istiqamətləri"**dir. Bu fəslin birinci yarımbaşlığı **"Əhməd Cavad yaradıcılığının Türkiyədə nəşri"** adlanır. Əhməd Cavadın Türkiyə ədəbi-mədəni mühitində nəşrini, tədqiqini xronologiya ilə sıralasaq, bu tarixin 1916-cı ildən başladığının şahidi oluruq.

"Qoşma" kitabı ilə tanış olan Ziya Göyalp "İraq" şeirini 1918-ci ildə "Yeni məcmuə" dərgisində çap etdirmişdir. 1920-ci ildə "Türk dünyası" jurnalında Ömər Seyfəddin "Azərbaycanın istiqlaliyyəti münasibətilə" başlıqlı məqalə yazmışdır. Azərbaycan və Osmanlı türkləri arasında ortaq münasibətlərdən söz açan Ömər Seyfəddin örnək kimi Ə.Cavadın "Qoşma" adlı şeirlər kitabından bəhs edərək deyir: "Qoşma" şeir kitabı, sanki İstanbulda yazılmışdır"[2].

1928-ci ildə isə Əhməd Cavadın 8 şeiri "İstiqlal uğrunda" məcmuəsində çap olunur. Bu məcmuə hazırda İstanbul Universitetinin kitabxanasında qorunub saxlanılır. Əhməd Cavadın bu jurnalda dərc edilmiş şeirləri bunlardır: "Bir gün", "Al bayrağa", "Göy göl", "Sən ağlama", " Bismillah", "Qalx", "Türkün səsi", "Bir gül əkdim". Bu şeirlər, sanki şairin ölüm fərmanı olur. Türkiyədə şairin şeirlərinin çapı xəbəri Azərbaycana Moskvadan çatır. Bu xəbər alan dövrün saray şairləri, tənqidçiləri şairə hücuma keçdilər. Ə. Cavad bu adamlara "Şiddətli protesto edirəm"[3] adlı yazı ilə cavab versə də, ona olan hücumlar azalmır.

---

[1] Rüstəmli A.. C. Cabbarlı: həyatı və mühiti. Bakı: Elm, 2009,s.85
[2] Seyfettin Ö. Azerbaycanın İstiklali münasibeti ile // Türk dünyası, Dil ve edebiyat dergisi, Ankara, 1920 s.20
[3] Cavad .Ə.Şiddətli protesto edirəm // "Kommunist" qəzeti, 1929, 31 oktyabr.

Kamal bəyin ön sözü və tərtibatı ilə çıxan "İstiqlal uğrunda" məcmuəsində müəlliflər haqqında heç bir məlumat yoxdur. Bu şeirlərin dərgiyə kimlər tərəfindən təqdim olunması barədə araşdırma apardıq və öyrəndik ki, "İstiqlal uğrunda" şeirlər məcmuəsi Müsteşar imzasından istifadə edən Kamal adlı yazıçı tərəfindən nəşr edilmişdir. Kamalın "Azərbaycan Türk" məcmuəsində 4 yazısı çap olunmuşdur. Bu jurnalın bir xüsusiyyəti də odur ki, bir çox müəllif bu təxəllüsdən istifadə etmişdir. Yalnız Məhəmməd Əmin Rəsulzadə öz adıyla yazmışdır. "İstiqlal uğrunda şeirlər məcmuəsi" ndə M.Ə. Rəsulzadənin, Azərbaycan oğlu və Gültəkin təxəllüslü yazarların şeirləri Milli Azərbaycan nəşriyyatında 8 sayı "İstiqlal uğrunda" Şeirlər Məcmuəsinin Orxaniyyə Mətbəəsində 1928-ci ildə çap edilmişdir. Şeirlər azərbaycanlı Kamal adlı bir yazıçı tərəfindən nəşr edilmişdir. Məcmuə 8 fəsildən ibarət olmuşdur. Bu məcmuədə Əhməd Cavadın 8 şeiri yer almışdır. Buradan görünür ki, Sovet dönəmində Azərbaycan və Türkiyə arasında ədəbi əlaqələr səngisə də, Əhməd Cavad fenomeni Türkiyə ədəbi-mədəni mühitində yaşamaqdaydı.

1975-ci ildə İstanbulda Hüseyn Baykaranın "Azərbaycan mücadiləsi tarixi" adlı bir kitabı işıq üzü gördü. Bu kitab Azərbaycan xalq yayınları seriyasından nəşr olunmuşdur[1]. Kitabda yer almış başlıqlardan biri də "Azərbaycan milli şairi Əhməd Cavad istiqlal mücadiləsində" adlanır. ki, burada Ə. Cavad haqqında xeyli geniş məlumat verilir

XX əsrin 90-cı illərində Türkiyə ədəbi-mədəni mühitində yenidən Əhməd Cavada qarşı maraq baş qaldırır. Müxtəlif kitablarda, əsərlərdə Əhməd Cavadın şeirləri nəşr olunur, onun haqqında yazılar gedir.

**II fəslin ikinci yarımbaşlığı "Türkiyədə Əhməd Cavad haqqında nəşr olunmuş məqalələrin təhlili"** adlanır.

Əhməd Cavad haqqında Türkiyə ədəbi-mədəni mühitində yazılıb nəşr olunmuş məqalələri şərti olaraq iki qismə bölmək olar: 1. Türkiyə ədəbi-mədəni mühitində Əhməd Cavad haqqında yazan türkiyəli müəlliflər; 2. Türkiyə ədəbi-mədəni mühitində Əhməd Cavad haqqında yazan azərbaycanlı müəlliflər. 1. Ölümündən illər keçsə də, Ə. Cavad Türkiyə xalqı üçün unudulmaz bir insan olaraq qalmaqdadır. Onun haqqında isdər dövrü mətbuatda, elmi dərgilərdə, istərsə də internet səhifələrində onlarla məqalələr yazılmışdır. Yəqin ki, hələ çox illər türkiyəli müəlliflər tərəfindən Türkiyənin müxtəlif xəbər portallarında Əhməd Cavad haqqında yazılanların arası səngiməyəcək, o, türk insanı üçün əlçatmaz türk aşiqi, türk vurğunu biri kimi qalacaq.

---

[1] Baykara H. Azerbaycan İstiklal mücadilesi tarihi. İstanbul: 1975, Genlik basımevi, s.190

2.Azərbaycanlı müəlliflər də Əhməd Cavad şəxsiyyətinin Türkiyə ədəbi-mədəni mühitində tanıdılmasında çox işlər görmüşlər. Belə müəlliflərdən Sevil Nuriyevanın, Afina Məmmədlinin, Tamella Abbasxanlının məqalələrini örnək kimi göstərə bilərik. Bu məqalələrin böyük əksəriyyəti internet saytlarında yer almışdır. Hazırda Azərbaycanda yaşayıb yaradan Türkiyə alimlərinin araşdırmalarında da Ə.Cavad mövzusu önəmli yerlərdən birini tutur. Qafqaz Universitetinin professoru Erdal Karamanın "Azərbaycan şeirində Türkiyə" adlı məqaləsi də belə yazılardan sayıla bilər[1].

II fəslin **"Əhməd Cavad yaradıcılığı Türkiyədəki elmi tədqiqatlarda"** adlı üçüncü yarımfəslində şairin həyat və yaradıcılığının Türkiyədə elmi səviyyədə tədqiqinin öyrənilməsi nəzərdə tutulmuşdur.

1990-cı ildə Ankarada Əhməd Cavadın "Çırpınırdı Qaradəniz" kitabı işıq üzü gördü. Kitabda Əhməd Cavadın XX əsrin əvvəllərində Bakıda çap olunmuş "Dalğa" və "Qoşma" kitablarındakı şeirlər küll halında verilmişdir. S. Gürcan kitaba geniş və sanballı bir ön söz yazmışdır.

Türkiyədə Əhməd Cavad yaradıcılığının elmi səviyyədə və sanballı şəkildə tədqiqatlarından birini də professor Yavuz Akpınarın rəhbərliyi altında İrfan Murat Yıldırım aparmışdır. İzmirdə aparılmış bu araşdırma 1992-ci ildə "Selam türkün bayrağına"("Salam türkün bayrağına") adı altında işıq üzü görmüşdür. Əsər ön sözdən və iki bölümdən ibarətdir.

İ.M.Yıldırımın əsərinin I bölümündə "1920-ci il öncəsi şeirlər" başlığında 5 yarımbaşlıq yer almışdır. Bu yarımbaşlıqlarda Əhməd Cavadın 1920-ci illərdən əvvəl yazdığı siyasi və sosial həyatla bağlı şeirləri, sevgi duyğularını, şairin iç dünyasını əks etdirən əsərləri və uşaq şeirləri yer almışdır[2].

Əsərin II bölümündə Əhməd Cavad yaradıcılığının elmi şəkildə tədqiqindən sonra onun 1916-cı ildə Bakıda "Açıq söz" mətbəəsində çap olunmuş "Qoşma" , 1919-cu ildə Bakı Dövlət Nəşriyyatında çap olunmuş "Dalğa" kitablarındakı şeirləri küll halında burada vermişdir. Əsərin sonunda Türkiyə türkcəsində və Azərbaycan dilində fərqli mənalarda işlənən sözlərin hazırlanmış lüğəti təqdim olunur ki, lüğətdə 422 söz əks olunmuşdur.

M.Yıldırım da S.Gürcan kimi Ə.Cavadın şeirlərini iki yerə ayırır:

1. 1920-ci ildən öncəki şeirlər; 2. 1920-ci ildən sonrakı şeirlər

---

[1] türkoloji.cu.edu.tr/cagdas%turk%lehceler/erdal_karaman_azerbaycan_siirinde_turkiye.pdf.
[2] Yıldırım İ. M., Selam Türkün Bayrağına, İzmir: Gelecek Matbaacılık ve Yayıncılık,1992, s. 16

II fəslin dördüncü yarımfəsli **“Türkiyə bədii nəsrində Əhməd Cavad surəti”** adlanır.

Müslüm Oğuzun “Nisan ağlar Mayısa”(“Aprel ağlar maya”) romanı Azərbaycan Demokratik Respublikasının ağır illərinə həsr olunmuş bir əsərdir.

T.Hüseynli bildirir ki, M.Oğuzun istifadə etdiyi, təsvir olunan dövrü təfsilatıyla öyrənmək üçün əsaslandığı mənbələrdən, heç şübhəsiz, biri mühacir Azərbaycan tarixçisi Mirzə Bala Məmmədzadənin yaradıcılığı, xüsusilə, onun “Milli Azərbaycan hərəkatı” kitabıdır[1].

Əsərdə Kapitan Atabala, Aybikə, Məmməd Əmin Rəsulzadə, Zeynəb Ana, Gökçe, Çulsuz şair, Əhməd Cavad obrazları və onlarla birlikdə ağlayan milyonlarla Azərbaycan türkü surəti var.

Romanda şair Axundzadə qatı bir türkçü kimi təqdim olunur. Türkü sevməyən hər kəs, Əhməd Cavadın düşmənidir. Romanda Əhməd Cavad türkçülüyə, Türkiyəyə düşmən gözlə baxanın çörəyini belə yeməyə etiraz edir.

Romanda oxuyuruq: “Əhməd Cavada zindanı da çox gördülər. Onu Sibirə göndərilən karvana qatdılar”. Maraqlıdır ki, şairin Sibirə sürgün olunması fikrinə biz H.Baykarada da rast gəlirik. Hər halda eyni məlumatın müxtəlif mənbələrdə təkrarlanması təsadüfi hal olmaya da bilər. Çünki Azərbaycan mühitində bir fakt məlumdur ki, Ə.Cavad 1937-ci ildə güllələnib. Onun harada güllələnməsi və məzarı barədə məlumat yoxdur. Lakin yuxarıda gördüyümüz kimi Ə.Cavadın Sibirə sürgün olunması haqqında da məlumatlar dolaşmaqdadır. Faktların hansının həqiqət olmasını sübuta yetirmək isə gələcək tədqiqatlarda bilinəcək.

Tədqiqatın III fəsli “**Azərbaycan və Türkiyə ədəbiyyatşünaslığında Əhməd Cavad yaradıcılığının mərhələləri”** adlanır. Bu fəslin birinci yarımbaşlığında **“Əhməd Cavad yaradıcılığının ilk mərhələsi”** öyrənilir.

Ə.Cavad yaradıcılığı Türkiyə və Azərbaycan alimləri tərəfindən müxtəlif cür təsnif edilmişdir.

Biz isə şairin yaradıcılığını üç mərhələyə ayırmağı məqsədəuyğun hesab etdik: I mərhələ-1920-ci ilə qədər olan dönəm; II mərhələ- Sovet mərhələsi; III mərhələ-həbsxana dövrü. Əhməd Cavad yaradıcılığının 1-ci mərhələsini “Qoşma” və “Dalğa” kitabları, onun içərisindəki şeirlər əhatə edir. Bu kitablar həcmcə xırda kitablardır. Lakin hər iki kitabın bədii yükü

---

[1] Hüseynli T.T. Azərbaycan Demokratik Respublikasının ağır illərinin romanı (Müslüm Oğuzun «Nisan ağlar Mayısa» romanı haqqında). Bakı: Nurlan, 2003,s.13

olduqca sanballı və dəyərlidir.Əhməd Cavad yaradıcılığında, xüsusilə I mərhələdə bir türk obrazı var!

Açın qəlbin qubarını, baxın nədir baş yazısı:
Əvvəl, Allah göndərəndir, sonra türkün bayatısı!

III fəslin ikinci yarımfəsli **"Əhməd Cavad yaradıcılığında Sovetlər dövrü"** adlanır. Əhməd Cavad yaradıcılığının II mərhələsini Sovet dönəmi təşkil edir. Bu dönəm ziddiyyətli bir dövrdür. Bu dövr, demək olar ki, Türkiyə alimləri tərəfindən öyrənilməmiş və yaxud onların az xəbərdar olduqları bir dönəmdir. Əhməd Cavadın sovet dövrü poeziyası da fəal ideya məzmunu, inqilabi romantikası, lirizmi, obrazlılığı ilə seçilir. Məmməd Əmin Rəsulzadənin təbirincə desək, Əhməd Cavadın işi bolşevik dövründə qətiyyən gətirmir[1]. Sovet hakimiyyətinin ilk illərində şairin yaradıcılığında daha dərin bir kədər, ümidsizlik hakim idi.

Lakin sonralar sovet rejimini tərənnüm edən əsərlər yazır. Bu dönəmdə yazılan əsərləri oxuduqda görürük ki, Ə.Cavadın hansı əqidəyə qulluq etdiyini ayırd etmək çətindir. Kommunistlərin Azərbaycan xalqının başına nələr gətirdiyini yaxşı bilən Ə.Cavad nə səbəbə bu qəbildən əsərlər yazırdı? Fikrimizcə, səbəb bunların heç biri deyildir. Ə.Cavad yeni amallar uğrunda mübarizəsiz, ideyasız yaşaya bilməzdi. Doğma xalqa bağlı olan Əhməd Cavad üçün idealsız, Azərbaycanın sabahına inamsız yaşamaq qeyri - mümkün idi. Bu şeirlərdə cəmiyyətdəki eybəcərliklər də tənqid atəşinə tutulmuşdur.

Əhməd Cavad yaradıcılığının II mərhələsində-Sovetlər birliyi dönəmində epik növdə də qələmini sınamış və uğur qazanmışdır. Lirik növdə yazdığı əsərlərlə nisbətdə epik əsərləri azdır və onların böyük əksəriyyəti yaradıcılığının II mərhələsinə aiddir. Epik əsərlərinə nəsr əsərləri, poemaları, publisistik və tərcümə əsərləri aiddir.

III fəslin **"Əhməd Cavadın dustaqlıq dövrü yaradıcılığı"** adlı son yarımfəslində Əhməd Cavadın həbsxanada yazdığı şeirləri onun yaradıcılığının bir mərhələsi hesab edilmiş və tədqiq olunmuşdur. Bu şeirlərin sayı az olsa da öz poetikasına, ideya-bədii xüsusiyyətlərinə görə I və II mərhələdən fərqlənirlər. Altı ay həbsdə qalmasına və olmazın işgəncələr çəkməsinə baxmayaraq Ə.Cavad bir şair və vətənpərvər

[1] *http://furgan.net/?p=1481*

şəxsiyyət kimi sınmamış, əksinə, həbsdəykən ideya düşmənlərinə, milli mədəniyyətimizin əbədi dəyərləri, adi həqiqətləri kursundan sapmış bolşevik əlaltılarına, Azərbaycan xalqının bədxahlarına cavab və ittiham şeirləri qələmə almışdır.

Əhməd Cavadın həbsxanada olarkən yazdığı “Göy göl”, “Ay ellər”, “Neynim”, “Susmaram” və s. əsərləri onun yaradıcılığının ən gözəl lirik şeirləri sayılır.

Dissertasiya boyu apardığımız tədqiqatın nəticələri aşağıdakı bəndlərdə ümumiləşdirilib:

1. Tədqiqatda XX əsrin əvvəllərində Türkiyədə və Azərbaycanda mövcud olan ədəbi-mədəni mühit müqayisə edilmişdir. Belə nəticəyə gəlinmişdir ki, XX əsrin əvvəllərində Türkiyədəki ədəbi –mədəni mühit Azərbaycanda gedən ədəbi proseslərə birbaşa təsir edib, hətta bu prosesləri yönləndirməyə də xidmət göstərmişdir. Türkiyədəki bu ədəbi proseslərin təsiri ilə Azərbaycan ədəbiyyatında XII əsrdən mövcud olan romantizm bir cərəyan kimi formalaşdı. İki ədəbi-mədəni mühitin bir-birinə yaxınlaşmasında və təsir göstərməsində Türkiyədə təhsil alan tələbələrin, Türkiyədən Azərbaycana dərs deməyə gələn müəllimlərin böyük və müstəsna rolu olmuşdur. XX əsrin əvvəllərində türkdilli xalqlar arasında türkçülük ideyaları gücləndi. Azərbaycan xalqının qəlbində Türkiyəyə, Türkiyə xalqına qarşı olan məhəbbət hissləri yenidən alovlandı. Ortaq dil, ortaq ədəbiyyat, ortaq soy-kök məsələləri yenidən gündəmə gəldi. Bütün bu proseslər Əhməd Cavadın əsl türkçü kimi yetişməsində böyük rol oynadı.

2. XX əsrin əvvəllərindən Azərbaycan və Türkiyə ilə əlaqələrin intensivləşməsində 1905-ci il inqilabının da böyük rolu olmuşdur. Bu inqilabdan sonra Car Rusiyası təbəəsində olan xalqlara, xüsusilə, türkdilli xalqlara qismən azadlıq verildi. Bu şəraitdə Azərbaycan ziyalıları ilə Türkiyə ziyalıları arasında ictimai-siyasi, elmi əlaqələr gücləndi. Qarşılıqlı təhsil mübadiləsi, hər iki ölkədəki ədəbi mühitin bir-birinə təsiri Türkiyə və Azərbaycan arasındakı əlaqələri gücləndirdi. XX əsrin əvvəllərində intensivləşən bu əlaqələrdə Türkiyədə mövcud olan ədəbi mühit güclü şəkildə Azərbaycan ədəbi mühitinə təsir göstərmiş, bununla da Azərbaycan ədəbiyyatında XII əsrdən bəri mövcud olmuş romantizm bir cərəyan kimi formalaşmışdır ki, poeziyada bu cərəyanın ən istedadlı nümayəndələri Hüseyn Cavid, Məhəmməd Hadi, Abdulla Şaiq, Abbas Səhhət və Əhməd Cavad olmuşdur.

İstər Balkan müharibəsində, istərsə də I Dünya Müharibəsi illərində Türkiyəyə olan məhəbbət onu döyüş meydanlarına aparmış, türk xalqlarının birliyi uğrunda mübarizəyə səsləmişdir. Əhməd Cavadın

Türkiyə ədəbi-mədəni mühitinə də gəlişinin özünə xas səbəbləri və təkanverici qüvvələri olmuşdur ki, bunlar ilk növbədə şairin Gəncədəki təhsil illəri ilə bağlıdır. Gəncədəki təhsil illərində ona dərs demiş türkiyəli müəllimlər, Gəncədəki türkçü əhval-ruhiyyə şairin bir türkçü kimi yetişməsində böyük rol oynadı. I Dünya və Balkan müharibələrində Türkiyənin iştirakı, qardaş türk xalqına yardım üçün Bakıda xeyriyyə cəmiyyətinin qurulması və Əhməd Cavadın bu cəmiyyətdə fəal iştirakı, nəhayət Türkiyəyə getməsi şairin qəbində qardaş ölkəyə və xalqa olan sevgini dərinləşdirib əbədiləşdirir. Azərbaycanda Demokratik Respublikasının qurulması, türk qoşunlarının Azərbaycan xalqına yardıma gəlməsi, şairin türk əsgərləri ilə birlikdə düşmənə qarşı eyni səngərdə döyüşməsi, nəhayət Əhməd Cavadın Türkiyə mövzulu şeirlərinin Türkiyədə nəşrinə səbəb oldu.

3. Əhməd Cavad yaradıcılığının Türkiyədə öyrənilmisinin də özünə xas xronologiyası mövcuddur. Hətta Sovet dönəmində Türkiyə və Sovet Azərbaycanı arasındakı əlaqələrin çox sönük olduğu bir zamanda belə Əhməd Cavad şeirləri Türkiyədəki dərgilərdə çap olunurdu.

Əhməd Cavad yaradıcılığı Türkiyədə çap olunmuş məqalələrdə də əks olunmuşdur. Bu məqalələrin bir qismi türkiyəli müəlliflər, bir qismi isə Türkiyədəki Azərbaycanlı müəlliflər tərəfindən yazılıb. Bu məqalələrdə Əhməd Cavad şəxsiyyəti hərtərəfli şəkildə oxuculara təqdim olunmuşdur. Bu yazılarda, əsasən, Türkiyə ictimaiyyətinin, siyasət adamlarının Ə.Cavad haqqındakı fikir və düşüncələri, Əhməd Cavad simasına obyektiv və subyektiv baxışlar öz əksini tapmışdır. Ə.Cavad dərgi və qəzetlərdə çap olunmuş məqalələrdən başqa internet portallarında yer almış məqalələrin də əsas simasına çevrilmişdir.

Əhməd Cavad yaradıcılığının Türkiyə ədəbi-mədəni mühitində sırf elmi şəkildə tədqiqi XX əsrin II yarısından başlamışdır. Əsasən şairin "Dalğa" və "Qoşma" kitablarındakı şeirlər tədqiq olunmuşdur. Şairin XX əsrin əvvələrində Bakıda çap olunmuş kitabları Türkiyədə yenidən çap olundu. 1990-cı illərdən isə Türkiyə alimləri Əhməd Cavad yaradıcılığına sırf elmi şəkildə yanaşma istiqamətini götürmüşdülər. Əhməd Cavad yaradıcılığının Türkiyədə öyrənilməsinin bir xronologiyası mövcuddur ki, bu şairin Türkiyədə nə qədər dəqiq ardıcıllıqla öyrənilməsinə bariz nümunədir.

Əhməd Cavad o qədər türkçü, Türkiyə sevgisiylə dolu bir insan olmuşdur ki, o nəinki alimlərin, yazıçıların da obyekti olmuşdur.

4. Əhməd Cavad yaradıcılığının Türkiyə ədəbi-mədəni mühitində sırf elmi şəkildə tədqiqi XX əsrin II yarısından başlanmışdır. Əsasən şairin "Dalğa" və "Qoşma" kitablarındakı şeirlər araşdırılmışdır. 1990-cı illərdən isə Türkiyə alimləri Əhməd Cavad yaradıcılığına sırf elmi şəkildə yanaşma istiqaməti götürmüşdülər. Əhməd Cavad yaradıcılığının Türkiyədə öyrənilməsinin bir xronologiyası mövcuddur ki, bu şairin Türkiyədə nə qədər dəqiq ardıcıllıqla araşdırılmasına bariz nümunədir. Əhməd Cavad o qədər türkçü, Türkiyə sevgisiylə dolu bir insan olmuşdur ki, o nəinki alimlərin, yazıçıların da obyekti olmuşdur. Dissertasiyada Müslüm Oğuzun "Nisan ağlar Mayısa"("Aprel ağlar maya") romanındakı Əhməd Cavad obrazı təhlil olunmuşdur.

5. Türkiyə və Azərbaycan alimlərinin şairin yaradıcılığına fərqli baxışları mövcuddur ki, bunlar tədqiqatda hərtərəfli işıqlandırılıb. Biz Əhməd Cavad yaradıcılığının dönəmlərini fərqli mərhələlərə bölmüş, yaradıcılığında istifadə etdiyi bütün ədəbi növlərdən nümunələri təhlil etməyə çalışaraq, şairin əsərlərinə obyektiv münasibət bildirmək istəmişik.

Araşdırmamızdan belə nəticəyə gəldik ki, Əhməd Cavad yaradıcılığı, şəxsiyyəti Türkiyə ədəbi mədəni mühitində yetərincə tədqiq olunub öyrənilibsə də yenə bu sənətkarın yaradıcılığının digər mərhələlərinin Türkiyə ədəbi-mədəni ictimaiyyətinə çatdırılmasında çox işlər görülməlidir. Əhməd Cavadın yaradıcılığının II və III mərhələləri, xüsusilə, də Sovet dönəmi mərhələsində yazdığı ziddiyyətli şeirlər Türkiyə ədəbi mühitində araşdırılıb nəşr olunmayıb. Onun tərcümə əsərləri, publisistikası, epik əsərləri Türkiyə türkcəsinə uyğunlaşdırılıb Türkiyə oxucularına çatdırılmalıdır.

Beləliklə, XX əsrin ilk onilliklərindən başlayaraq Türkiyə gündəminə gəlmiş Əhməd Cavad bu gün də öz aktuallığını Türkiyə ədəbi mədəni mühitində saxlamışdır. Bir çox Azərbaycan şairi Türkiyədə sevilsə də, Əhməd Cavad qədər Türkiyə mühitində uzunmüddətli sevilən ikinci bir Azərbaycan sənətkarı yoxdur.

**Dissertasiyanın əsas məzmun və müddəaları aşağıdakı tezis və məqalələrdə öz əksini tapmışdır:**


1. Əhməd Cavadın Türkiyə sevdası. "Elmi axtarışlar" № 6/12, Folklor İnstitutu, Bakı, 2009.s. 120-124.

2. Sosial pedaqoq. Gənc tədqiqatçıların Ümumrespublika Elmi Konfransı-Tezislər, 06-07 May, 2010-cu il, Bakı. S.339-340.

3. Azərbaycan istiqlaliyyətinin dan ulduzu Əhməd Cavad. "Elmi axtarışlar" № 1/02, Folklor İnstitutu, Bakı, 2010. S. 146-149.

4. Qafqazlardan yüksələn səs: Əhməd Cavad. “Elmi axtarışlar” № 3/05, Folklor İnstitutu, Bakı, 2010. s. 47-55.

5. Əhməd Cavadın həyat və yaradıcılığının xronologiyası. Gənc tədqiqatçıların Ümumrespublika Elmi konfransı-Tezislər, 06-07 May, 2010-cu il, Bakı.s.567-569.

6. Müəllim şəxsiyyətinin formalaşmasında görkəmli Azərbaycan şairi Əhməd Cavadın rolu. “Müəllim hazırlama siyasəti və problemləri” beynəlxalq konfrans-Materiallar, 30 Aprel-02 May, 2010-cu il, Bakı. s. 363-366.

7. XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında Əhməd Cavadın rolu. “Filologiya məsələləri” № 1, Əlyazmalar İnstitutu, Bakı, 2015, s.427-432.

8. Силы, давшие толчок приходу Ахмеда Джавада в турецкую литературную среду. «Вестник»МГЛУ № 2 (724), Москва, 2015, с. 51-60.

**ÖMER TAHSİN oğlu CULFA**

# AHMED JAVAD IN LITERARY-CULTURAL ENVIRONMENT OF TURKEY

## SUMMARY

The dissertation consists of an introduction, three chapters, a conclusion and the list of the used literature.

The I chapter is called " **Ahmad Javad and Turkey literary and cultural environment of XX century**".

I Chapter consists of three subtitles. It is disputed about the influence of Turkish masters and literary environment to Azerbaijan in the first subtitle, as the result of this influence the formation of romanticism in Azerbaijan literature is taken place. The main reasons of Ahmad Javad's coming to the literary and cultural environment of Turkey were Ahmad Javad's training environment and education years, the First World War, the arrival of the Turkish army to Azerbaijan in 1918 and the establishment of ADR in this part.

The II Chapter of the dissertation is called "**The key points studying of Ahmad Javad's creativity in Turkey".** This subtitle presents the poet's creativity in Turkey in full chronological range. Ahmad Javad's image in the Muslim Oguz's work "April cries for May" ("Nisan ağlar mayısa") is fully analysed in this chapter.

The III chapter of the dissertation is called " **The Stages of creativity of Ahmad Javad in Azerbaijan and Turkey** ". A different approach of other scientists on Ahmad Javad's creativity are available in this chapter. The first subtitle is called " **The first stage of Ahmad Javad's creativity** ". The attitute towards the poems in "Goshma" and "Dalga" books are shown. In the second subtitle is " **The soviet period in Ahmad Javad's creativity** ". This period is less investigated in Turkish literary sphere. Therefore, the investigation was carried out more detailed on this period. The third subtitle is called **" The imprisonment period of Ahmad Javad's creativity "** the poet's works written in prison is investigated here.

The results of the investigation are summarized in the "Conclusion".

**ОМЕР ТАХСИН оглы ДЖУЛФА**

# «АХМЕД ДЖАВАД В ЛИТЕРАТУРНО-КУЛЬТУРНОЙ СРЕДЕ ТУРЦИИ»

## РЕЗЮМЕ

Диссертация посвящена творчеству азербайджанского поэта Ахмеда Джавада, становление и формирование поэтического таланта которого проходило в литературной среде Турции.

Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы. **Во введении** обосновывается актуальность темы, степень изученности проблемы, методологическая основа исследования, научная новизна, теоретическая и практическая значимость диссертации.

**В первой главе** – «Ахмед Джавад и литературно-культурная среда Турции» исследуется влияние турецких мастеров слова и литературной среды на азербайджанскую литературу, пантюркистское движение в Турции и Азербайджане, влияние идей пантюркизма на самого Ахмеда Джавада – великого поэта и мастера слова.

**Во второй главе** диссертации под названием «Основные направления исследования о творчестве Ахмеда Джавада в Турции» представлено его творчество в хронологическом порядке, где анализу подвергаются как статьи турецких авторов так и статьи азербайджанских ученых об Ахмеде Джаваде. Также подвергается подробному исследованию произведение Муслима Огуза «Апрель плачет о мае» («Nisan ağlar mayısa») , которое посвящено образу великого Ахмеда Джавада.

**Третья глава** – «Этапы творчества Ахмеда Джавада, в азербайджанском и турецком литературоведении», где объектом скрупулезного анализа являются стихотворения поэта «Гошма» и «Далга», также уделяется особое внимание творчеству Ахмеда Джавада в период тюремного заключения.

В заключении диссертации подведены итоги исследования и сделаны соответствующие выводы.

**Kağız formatı: 60/84 16/1**
**Sayı: 100 nüsxə**

---

**AMEA-nın mətbəəsində çap olunmuşdur**

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ВОСТОКОВЕДЕНИЯ им.акад.З.М.БУНИЯТОВА**

***На правах рукописи***

**ОМАР ТАХСИН оглы ДЖУЛФА**

# АХМЕД ДЖАВАД В ЛИТЕРАТУРНО-КУЛЬТУРНОЙ СРЕДЕ ТУРЦИИ

**5717.01-** Литература тюркских народов

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по филологии**

**БАКУ - 2016**